# Həzi Aslanovla fəxr edirik

*Bu günlərdə oxucular Azərbaycan kənd kitabxanasında yaradılmış «Biz general Həzi Aslanovla fəxr edirik» adlı foto-stendin qarşısında daha çox ayaq saxladılar. Bu, heç də təsadüfi deyil. Qələbənin 62 illiyi ildönümü ərəfəsində xalqımızın qəhrəman oğlu daha çox xatırlanır, xatirəsi yad edilir.*

*Onun keçdiyi əfsanəvi döyüş yolu barədə oxuculara, məktəb şagirdlərinə geniş məlumat verməklə onlara onun keçirdiyi əzab və əziyyətlərdən danışdım.*

*Bu gün Azərbaycanın yeganə oğluna iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya generalı mayoru, təsis Almaniyası üzərində qələbədə həlledici rol oynamış Həzi Əhəd oğlu Aslanovla qanuni iftixar və böyük qürur hissi duyuruq.*

*Həzi Aslanovun sərkərdəlik məharəti, döyüşdə qorxmazlıq və igidlik nümunəsi göstərməsi, əsgər və zabitlərə düşməni necə əzməyi müstəqil Azərbaycan əsgərini torpaqlarımızı işğal etmiş düşmən üzərində qələbəyə ruhlandırır.*

*Azərbaycan kənd orta məktəbin təcrübəli dil-ədəbiyyat müəllimi Səfər Əmənullayev generala həsr etmiş şerləri, hekayələri və romanı haqqında şagirdlərə və əsgərliyə gedənlərə danışdı. Kitabxananın oxucu zalında müharibə və Qarabağ əlilləri, ağsaqqallar iştirak edirdilər.*

*Foto-stend çox maraqla qarşılandı.*

**A. MİRZƏZADƏ**